## Türkmənistan səfiri Şuşaya səfər edib



**Türkmənistanın Azərbaycandakı səfiri Şuşa şəhərinə səfər edib.**

Bu barədə səfirlik məlumat verir.

Qeyd olunur ki, avqustun 21-də Türkmənistanın yeni təyin olunmuş səfiri Qurbanmammet Elyasov Azərbaycanın mədəniyyət paytaxtı və 2023-cü il türk dünyasının paytaxtı Şuşaya birinci səfərini yerinə yetirib. Səfiri orada Azərbaycan Prezidentinin Şuşadakı xüsusi nümayəndəsi Aydın Kərimov qəbul edib.

Səfir şəhərin tarixi guşələri ilə tanış olub, ona Şuşada keçirilən bərpa işləri barədə məlumat verilib.

## İşğaldan azad olunmuş ərazilərdə ov mövsümü olmayacaq



**İşğaldan azad olunan ərazilərdə ov mövsümün açılması və ya orada ovçuluq fəaliyyətinin təşkili nəzərdə tutulmayıb.**

Bunu Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəisi Firuddin Əliyev deyib.

O bildirib ki, işğal müddətində orada olan faunaya da böyük mənfi təsir olub:

"Orada ekosistemin yenidən bərpa olunması, heyvanların sayının artırılması və təhlükəsizlik məslələrinin təmin edilməsi kimi məqamlar nəzərə alınaraq ovun təşkili nəzərdə tutulmayıb".

№ 150 (5672), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 24 avqust 2022-ci il (çərşənbə)




## Xüsusi karantin rejiminin müddəti daha 2 ay uzadılıb

**Koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2022-ci il 1 noyabr saat 06:00-dək uzadılıb.**

Bu barədə Nazirlər Kabineti müvafiq qərar qəbul edib.

Bundan əvvəl ölkə ərazisində xüsusi karantin rejiminin müddəti 2022-ci il 1 sentyabr saat 06:00-dək olan dövrü əhatə edirdi.



## "Laçın şəhəri və dəhliz artıq Azərbaycanın nəzarəti altındadır"

Tofiq Zülfüqarov: "Bir neçə günə məsələnin tamamilə xeyrimizə həll olunacağı gözlənilir"

**Məğlub Ermənistan üçtərəfli öhdəlikləri yerinə yetirməkdən yayınmağa çalışsa da, qalib Azərbaycanın hücum diplomatiyası və "Qisas" əməliyyatından sonra Laçından çıxmaq məcburiyyətində qaldığını anlayıb.**

Laçın şəhərinin mərkəzi, Zabux və Sus kəndlərində yaşayan ermənilərin hamısı bölgəni tərk etməyə məcbur qalıblar. Çünki həmin ermənilərin əksəriyyəti işğaldan sonra Yaxın Şərq ölkələrindən Laçına gətirilib və orada qanunsuz məskunlaşmalarına imkan yaradılıb.

(səh.3)

## "Kiyev raket hücumuna məruz qalsa..."

Volodimir Zelenski: "Cavab güclü olacaq"



**Ukrayna prezidenti Vladimir Zelenski Kiyevə və Ukraynanın digər şəhərlərinə mümkün raket hücumlarına cavab olaraq nə edəcəklərini açıqlayıb.**

"Report" UNIAN-a istinadə xəbər verir ki, o, bu barədə polşalı həmkarı Anjey Duda ilə birlikdə keçirdiyi mətbuat konfransında danışıb.

"Gündəlik olaraq təhlükə var. Biz qarşı tərəfin prioritelərini bilirik. Onlar infrastruktur obyektlərinə və ya dövlət qurumlarına zərbələr endirirlər. Rusiya bu zərbələrin sayını artıra bilər. Bizim üçün Kiyevin digər şəhərlərdən fərqi yoxdur. Kiyev vurularsa, cavab Xarkov və Zaporejyedə olduğu kimi olacaq. Qarşı tərəf güclü cavab alacaq", - o bildirib.

# Bu ay Azərbaycan-Ermənistan nümayəndələri Moskvaya toplaşacaq

İrəvan hökumətinin bu dəfə sərhədlərin demarkasiyası məsələsinə daha ciddi yanaşacağı gözlənilir



**Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası və təhlükəsizliyi üzrə komissiyaların ikinci görüşünün avqustun sonunadək Moskvada keçirilməsi planlaşdırılır.**

Bu barədə TASS agentliyi məlumat verir.

Qeyd olunub ki, hazırda görüşdə müzakirə olunacaq gündəlik hələlik müəyyənləşdirilməyib. Xatırladaq ki, komissiyaların birinci görüşü bu il mayın 24-də keçirilmişdi.

"Uzun müddət əsəb müharibəsini davam etdirməyə çalışan rəsmi İrəvan ənənəvi ritorikasını dəyişmək məcburiyyətində qalıb". Bu barədə siyasi şərhçi Elçin Mirzəbəyli deyib. Analitik bildirib ki, Baş nazir Nikol Paşinyanın ölkəsinin müstəqilliyi haqqında bəyannamənin qəbul edilməsinin ildönümü ilə bağlı təbrik müraciətində yer alan etiraflarından sonra müavini Mqer Qriqoryan da dilə gəlib: "O, sərhədlərin demarkasiyası və təhlükəsizliyi məsələləri üzrə komissiyanın nümayəndələrinin avqust ayında, yəni yaxın günlərdə Moskvada bir araya gələcəyini bildirib. Öncə Nikol Paşinyanın müraciətində yer alan və diqqətimi çəkən məqamlara toxunmaq istəyirəm. Nikol deyir ki, "müstəqillik qonşularla münasibətlərin tənzimlənməsidir. Baxmayaraq ki, bəzi qonşularımızla əla münasibətlərimiz var, bəziləriylə isə nəzərə çarpan irəliləyiş yoxdur. Ona görə ki, onlar bizdən həddən artıq çox şey istəyirlər, yaxud elə hesab edirlər ki, biz çox şey istəyirik". Daha sonra Paşinyan Bibliya əfsanəsindən misal gətirərək, hazırda asılı vəziyyətdə olduqlarını etiraf edir və bildirir ki, "əgər müstəqil olsaq müstəqilliyimiz də olacaq".

(səh.2)

# Dərslər sentyabrın 15-də başlayacaq

Emin Əmrullayev: "Biz heç kəsi məktəbli forması geyinməyə məcbur etmirik"



**"Məktəb direktorlarına aylıq əlavələr hər il yanvar ayından etibarən məktəbdə nə qədər şagird qeydiyyatdadırsa, ona uyğun olaraq hesablanacaq".**

Bunu Elm və təhsil naziri Emin Əmrullayev brifinqdə deyib. Onun sözlərinə görə, aylıq əlavələr təxminən 865 direktoru və 2343 direktor müavinini əhatə edəcək: "Himayədar ailə"nin tətbiqi ilə bağlı qanunvericilik bazası yaradılır. Əvvəl şagird sayı 500 olan direktor da 650 manat vəzifə maaşı alırdı, bütün vergiləri çıxdıqdan sonra 4000 şagird təhsil alan məktəbin direktoru da.

(səh.2)



## Yaxın günlərdə maska tələbi məcburi olacaq

Məhdudiyyətlərin tətbiq olunacağı, karantin qaydalarının sərtləşdiriləcəyi isə gözlənilən deyil

**Hazırda koronavirusa yoluxanların sayının artması bütün dünya ölkələri üçün aktual məsələyə çevrilib.**

Ölkəmizdə də bu virusa yoluxanların sayında yenidən canlanma müşahidə olunur. Ötən gün Azərbaycanda koronavirusdan 8 nəfər həyatını itirib. Aktiv xəstə sayı isə 4 minə yaxınlaşıb. Belə olan halda ölkədə qapanmaların olub-olmayacağı müzakirə mövzusudur. Şimal qonşumuz artıq buna uyğun addımlar atmağa başlayıb.

(səh.4)

## Daha 622 nəfər koronavirusa yoluxub

2 nəfər ölüb, 678 nəfər müalicə olunaraq sağalıb




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 622 yeni yoluxma faktı qeydə alınıb, 678 nəfər müalicə olunaraq sağalıb.**

Bu barədə "Şərq"ə Nazirlər Kabineti yanında Operativ Qərargahdan məlumat verilib.

COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslər arasında 2 nəfər ölüb.

Azərbaycanda indiyədək ümumilikdə 809 335 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 795 900 nəfər müalicə olunaraq sağalıb, 9 795 nəfər vəfat edib, aktiv xəstə sayı 3 640 nəfərdir.

*Ölkədə son sutka ərzində 4 442, hazırkı dövrədək isə 7 127 158 test aparılıb.*

## Sumqayıtda 13 yaşlı qızı maşın vuraraq öldürüb



**Sumqayıtda piyadanın ölümü ilə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib.**

APA-nın yerli bürosunun məlumatına görə, hadisə şəhərin Zülfü Hacıyev küçəsində qeydə alınıb. Belə ki, yolu keçmək istəyən piyada, 2009-cu il təvəllüdlü Babayeva Günay Samir qızını "Xəzər Azsamand" markalı avtomobil vurub. 13 yaşlı G. Babayeva aldığı xəsarətlərdən dünyasını dəyişib. Mərhumun meyiti müayinə olunmaq üçün aidiyyatı üzrə təhvil verilib.



## "Laçında evləri yandıran ermənilərin cəzası ağır olmalıdır"

Tural Abbaslı: "Belə ləyaqətsiz toplumla birgəyaşayış çox çətin olacaq"

(səh.4)

## Rəşt-Astara dəmiryolunun tikintisi yubanır

Rusiya, Azərbaycan və İran dəmiryolları şəbəkəsinin tam birləşdirilməsi baş tutmayıb



(səh.4)

## Ərazi Tikinti-Planlaşdırma Mərkəzinin vəzifələri artırılıb

**Prezident İlham Əliyev ”Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bəzi məsələlər haqqında” 19 mart 2019-cu il tarixli fərmanında dəyişiklik edib.**

Dövlət başçısı bununla bağlı yeni fərman imzalayıb.

Fərmana əsasən, Komitənin Ərazi Tikinti-Planlaşdırma Mərkəzi Bakı şəhəri ilə yanaşı, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əhatə etdiyi şəhər və rayonların inzibati ərazilərində də yol və mühəndis-kommunikasiya xətləri üçün trasları müəyyən etmək, səyyar və əsaslı tikinti olmayan obyektlərin, o cümlədən əsaslı tikinti olmayan xırda pərakəndə ticarət obyektləri və komplekslərinin yerləşdirilməsi və quraşdırılmasına dair rəy hazırlamaq vəzifələri verilib.

Nazirlər Kabinetinə bu fərmandan irəli gələn məsələləri həll etmək tapşırılıb.

## Ərdoğan: "Türkiyə Krımın ilhaqını tanımır"



**Türkiyə Krımın ilhaqını tanımır və ilk gündən bu addımın qeyri-qanuni olduğunu açıq şəkildə bəyan edir.**

APA-nın İstanbul müxbirinin verdiyi xəbərə görə, bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ”Krım Platforması”na üzv ölkələrin liderlərinin zirvəsinə ünvanlanmış videomesajında deyib.

O qeyd edib ki, bu, təkcə hüquqi deyil, həm də mənəvi əsasları olan prinsipial mövqedir.

”Ukraynanın ayrılmaz hissəsi olan Krımın ona geri qaytarılması beynəlxalq hüququn tələbidir. Ukraynanın ərazi bütövlüyü, suverenliyi və siyasi birliyinin qorunması təkcə regional deyil, həm də qlobal təhlükəsizlik və sabitlik üçün vacibdir”, - deyə o bildirib.

Ərdoğan, həmçinin, Krımın yerli haqq sahiblərindən biri olan Krım tatar-türklərinin təhlükəsizliyinin və rifahının təmin edilməsinin də Türkiyənin prioritetləri sırasında olduğunu vurğulayıb: ”Tarix boyu böyük iztirablara məruz qalan Krım tatarları öz vətənlərində sülh içində yaşamaq üçün mübarizə aparırlar. Türkiyə bu prosesdə Ukrayna hökumətinin və Krım tatarlarının yanında olmağa davam edəcək”.



## Şavkat Mirziyoyev İlham Əliyevə zəng edib

### Telefon söhbəti əsnasında iki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlığın gələcək inkişafı müzakirə olunub

**Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Bu barədə Azərbaycan Prezidentinin Mətbuat Xidmətinə istinadən xəbər verir.

Telefon söhbəti əsnasında iki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlığın gələcək inkişafı və strateji tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsi məsələləri müzakirə olunub.

Bu ilin iyun ayında ali səviyyəli görüşlərin yekunlarına əsasən əldə olunmuş razılaşmaların reallaşmasında nəzərəçarpacaq tərəqqi məmnunluqla qeyd edilib.

Avqustun əvvəlində Hökumətlərarası Birgə Komissiyanın növbəti iclasının, Özbəkistan, Azərbaycan və Türkiyənin xarici işlər, ticarət və nəqliyyat nazirlərinin birinci görüşünün səmərəli olduğu vurğulanıb.

Bildirilib ki, cari ildə qarşılıqlı əmtəə dövriyyəsi 70 faiz artıb, kənd təsərrüfatı, ipəkçilik və toxuculuq sənayesi, maşınqayırma, kimya və digər sahələrdə birgə kooperasiya layihələrinin həyata keçirilməsinə başlanılıb. Qeyd edilib ki, Özbəkistan-Azərbaycan investisiya fondunun tezliklə fəaliyyətə başlaması üzrə iş aparılır və mədəni-humanitar mübadilə genişlənir.

Dövlət başçıları praktiki qarşılıqlı fəaliyyətin daha da genişləndirilməsinə tərəfdar olduqlarını bildiriblər. Bu baxımdan cari ilin payızında Regionların Forumunu və iki ölkənin sənaye potensialı sərgisini keçirməyin vacibliyi qeyd edilib.

Telefon söhbəti zamanı regional gündəliyə dair fikir mübadiləsi də aparılıb. Qarşıdakı çoxtərəfli görüşlərin, o cümlədən Şanxay Əməkdaşlıq Təşkilatının və Türk Dövlətləri Təşkilatının Səmərqənddə baş tutacaq zirvə görüşlərinin qrafiki və gündəliyi nəzərdən keçirilib.

Özbəkistan və Azərbaycan prezidentlərinin telefon söhbəti ənənəvi açıq, səmimi və dostluq şəraitində keçib.

## Rəşt-Astara dəmiryolunun tikintisi yubanır

### Rusiya, Azərbaycan və İran dəmiryolları şəbəkəsinin tam birləşdirilməsi baş tutmayıb

**Azərbaycan, İran və Rusiya arasında Tranzitin Asanlaşdırılması üzrə Anlaşma Memorandumu imzalanıb. Üç ölkə bununla Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizindəki iştirakını gücləndirmək üçün yeni alətlərə yiyələnir. Azərbaycan Şimal-Cənub dəhlizinin həmtəsisçilərindən olan Rusiya, İran və Hindistan arasındakı ticarətdə, bu ticarətin Avropa ilə arteriyasının yaradılmasında orta həlqə kimi faydalanmaq imkanlarına malikdir. Yəni böyük tranzit əhəmiyyəti daşıyır.**

İqtisadi tabloda Azərbaycanın Rusiya və İran arasında tranzit rolu oynaması onun üçün doğulacaq qazancları inkişaf etdirir. Ekspertə görə, Azərbaycan bundan bir sıra iqtisadi dividendlər əldə edəcək. Məsələn, sərbəst ticarətin təşviqi sürətlənəcək, ticarət infrastrukturu modernləşdiriləcək, milli iqtisadiyyatın digər müstəvidə diversifikasiyası və beynəlxalq aləmə inteqrasiyası asanlaşacaq. Eyni zamanda Hindistan kimi nəhəng dövlətin regionda, o cümlədən Azərbaycanda iqtisadi maraqları artacaq. Həmçinin, Rusiya-Azərbaycan-İran arasında enerji dəhlizinin yaradılması dəyər qazanacaq.

**Siyasi şərhçi Aqşin Kərimov ”Şərq”ə bildirib ki, Azərbaycanın planında Zəngəzur dəhlizinin Şimal-Cənub nəqliyyat koridoruna, eləcə də Şərq-Qərb dəhlizinə inteqrasiya edilməsi məsələsi yer alır. Lakin analitikə görə, hələlik mövcud razılaşmaların icra edilməsi ümdə məsələdir:** ”Rusiya, Azərbaycan və İran dəmiryolları şəbəkəsinin tam birləşdirilməsi baş tutmayıb. Çünki İran ərazisində Rəşt-Astara dəmiryolunun tikintisi yubanır. Rəşt-Astara dəmiryolunun tikintisi yekunlaşsa və o, işə düşsə, İranın cənubundakı Fars körfəzi limanları ilə şimalda Xəzər dənizinin sahilindəki Rəşt limanı arasında arteriya təmin ediləcək. Lakin bəzi gecikmələr göstərir ki, Şimal-Cənub dəhlizinə əsaslanan əməkdaşlıqdan maksimum fayda əldə etmək üçün əlavə güclü stimullar tələb olunur. Bu stimul üçün siyasi iradə mövcuddur. Şimal-Cənub dəhlizinin iqtisadi layihə kimi əsas funksiyasının yerinə yetirilməsində Bakı da, Tehran da, Moskva da qərarlıdır. Çünki bu marşrut regional və qlobal səviyyədəki ticarəti asanlaşdıran münbit platformadır. Layihənin trafiki təkcə iqtisadi parametrlərlə yeni prioritetlər yaratmır. Eyni zamanda siyasi və təhlükəsizlik çağırışları ortalığa çıxarır. Bəzi yubanmalar inteqrasiyaların intensivləşdirilməsi zamanı meydana çıxa biləcək çətinliklər və imkanların təhlükəsizlik mühiti ilə əlaqələndirilməsi səbəbinə söykənə bilər. Azərbaycanın Şimal-Cənub marşrutunun vacib kəsişməsində yerləşməsi Bakıya əlavə siyasi-iqtisadi təsir imkanları qazandırır və daha böyük bazarlara çıxışını təmin edəcək”.



***"Şimal-Cənub dəhlizinin iqtisadi layihə kimi əsas funksiyasının yerinə yetirilməsində Bakı da, Tehran da, Moskva da qərarlıdır"***

**İsmayıl**



## Bu ay Azərbaycan-Ermənistan nümayəndələri Moskvaya toplaşacaq

### İrəvan hökumətinin bu dəfə sərhədlərin demarkasiyası məsələsinə daha ciddi yanaşacağı gözlənilir

**Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası və təhlükəsizliyi üzrə komissiyaların ikinci görüşünün avqustun sonunadək Moskvada keçirilməsi planlaşdırılır.**

Bu barədə TASS agentliyi məlumat verir.

Qeyd olunub ki, hazırda görüşdə müzakirə olunacaq gündəlik hələlik müəyyənləşdirilməyib.

Xatırladaq ki, komissiyaların birinci görüşü bu il mayın 24-də keçirilmişdi.

**”Uzun müddət əsəb müharibəsini davam etdirməyə çalışan rəsmi İrəvan ənənəvi ritorikasını dəyişmək məcburiyyətində qalıb”. Bu barədə siyasi şərhçi Elçin Mirzəbəyli deyib. Analitik bildirib ki, Baş nazir Nikol Paşinyanın ölkəsinin müstəqilliyi haqqında bəyannamənin qəbul edilməsinin ildönümü ilə bağlı təbrik müraciətində yer alan etiraflarından sonra müavini Mqer Qriqoryan da dilə gəlib:** ”O, sərhədlərin demarkasiyası və təhlükəsizliyi məsələləri üzrə komissiyanın nümayəndələrinin avqust ayında, yəni yaxın günlərdə Moskvada bir araya gələcəyini bildirib. Öncə Nikol Paşinyanın müraciətində yer alan və diqqətimi çəkən məqamlara toxunmaq istəyirəm. Nikol deyir ki, ”müstəqillik qonşularla münasibətlərin tənzimlənməsidir. Baxmayaraq ki, bəzi qonşularımızla əla münasibətlərimiz var, bəziləriylə isə nəzərə çarpan irəliləyiş yoxdur. Ona görə ki, onlar bizdən həddən artıq çox şey istəyirlər, yaxud elə hesab edirlər ki, biz çox şey istəyirik”. Daha sonra Paşinyan Bibliya əfsanəsindən misal gətirərək, hazırda asılı vəziyyətdə olduqlarını etiraf edir və bildirir ki, ”əgər müstəqil olsaq müstəqilliyimiz də olacaq”. Nikolun müraciətindən iqtibas gətirdiyim fikirləri ardıcıllığa uyğun olaraq, ümumiləşdirsək, qənaətimə görə, onun Ermənistan cəmiyyətinə vermək istədiyi mesajlar bunlardır. Birincisi, Ermənistan qonşularla münasibətlərini tənzimləyə bilmədiyinə görə müstəqil deyil və bu vəziyyət davam edəcəyi təqdirdə, heç zaman müstəqil olmayacaq. İkincisi isə Nikolun ”qonşular bizdən çox şey istəyir” sözləri çox güman ki, ”qonşulara elə gəlir ki, biz çox şey istəyirik” fikirlərinin həzm etdirilməsinə xidmət edir. Bu o deməkdir ki, qonşuları, indiki şəraitdə Azərbaycan və Türkiyəni ermənilərin çox şey istəmədiyinə əmin etmədən münasibətlər tənzimlənməyəcək. Təbii ki, Paşinyanın daha öncə nümunə gətirdiyim tezisində qeyd olunduğu kimi Ermənistan da müstəqil olmayacaq”.

*E.Mirzəbəyliyə görə, Nikol Paşinyanın ”əgər müstəqil olsaq, müstəqilliyimiz də olacaq” tezisi isə bir neçə başlıdır:* ”Çünki Ermənistanın uzun illərdən bəri yürüdülən siyasət nəticəsində situasiyanın girovuna çevrildiyini ifadə edir. Həm də çox güman ki, Rusiyanı hədəfə alır. Paşinyanın müraciətində ”müttəfiqlik”lə bağlı ifadə olunan məqamlar da dolayısıyla bu ”hədəfə” işarə edir. Nikol müraciətində yazır: ”Müstəqillik bizim üçün həm də möhkəm müttəfiqlik münasibətləridir. Amma müttəfiqlər həmişə yalnız bizim üçün müttəfiq olmurlar, bizə qarşı olanlarla da müttəfiqlik edirlər”. Göründüyü kimi Ermənistanın baş naziri Rusiyanın həm də Azərbaycanla müttəfiqlik, Türkiyə ilə tərəfdaşlıq münasibətlərinə diqqət çəkir. Demək istəyir ki, Ermənistanın mövcud reallıqları qəbul etməkdən, qonşularla münasibətləri tənzimləməkdən, iddialarından əl çəkməkdən başqa yolu yoxdur”.

**Ekspertə görə, Ermənistanın müstəqilliyi hazırda kənar faktorlardan asılıdır:** ”Rəsmi İrəvanın ”Zəngəzur dəhlizi” ilə bağlı praktiki addımlar sərgilədiyini nümayiş etdirən bəzi faktları və Mqer Qriqoryanın sərhədlərin demarkasiyası və təhlükəsizliyi məsələləri üzrə komissiyanın nümayəndələrinin gözlənilən görüşü ilə bağlı açıqlamasını da nəzərə alsaq, Nikol Paşinyanın müstəqillik bəyannaməsinin 32-ci illiyi ilə bağlı müraciətini psixoloji kapitulyasiya aktı kimi də qəbul etmək olar”.

**İsmayıl**

## Dərslər sentyabrın 15-də başlayacaq

### Emin Əmrullayev: “Biz heç kəsi məktəbli forması geyinməyə məcbur etmirik”

**”Məktəb direktorlarına aylıq əlavələr hər il yanvar ayından etibarən məktəbdə nə qədər şagird qeydiyyatdadırsa, ona uyğun olaraq hesablanacaq”. Bunu Elm və təhsil naziri Emin Əmrullayev brifinqdə deyib. Onun sözlərinə görə, aylıq əlavələr təxminən 865 direktoru və 2343 direktor müavinini əhatə edəcək: ”Himayədar ailə”nin tətbiqi ilə bağlı qanunvericilik bazası yaradılır. Əvvəl şagird sayı 500 olan direktor da 650 manat vəzifə maaşı alırdı, bütün vergiləri çıxdıqdan sonra 4000 şagird təhsil alan məktəbin direktoru da. Bu artımlar direktorların iş yükünə görə düzgün qiymətləndirilmələrinə gətirib çıxaracaq”. Nazir bildirib ki, dərs deyən məktəb direktoru və müavinləri gələcəkdə sertifikasiyada iştirak edəcək: ”Hazırda ölkə məktəblərində 11 mindən çox direktor və direktor müavini də dərs deyir.**

### “Elə məktəblər var ki, 33 şagirdə 14 müəllim düşür”

Nazir bildirib ki, əvvəlki dövrdə nəzarət imkanlarının zəif olması səbəbindən hansı məktəbdə nə qədər müəllim işlədiyini bilmək çətin idi: ”Elə bölgələrimiz var ki, müəllim sayı həddən artıq çoxdur. Bu, o deməkdir ki, hər müəllimə daha az saat düşür və həmin müəllimlər daha az maaş alırlar. Elə məktəblər var ki, 33 şagirdə 14 müəllim düşür. Həmin müəllimləri indi işdən çıxarmaq olmaz. Keçmişdə buna nəzarət etmək olmurdu, amma indi buna nəzarət edə bilirik və hər il addım-addım bu problemləri həll etməyə çalışırıq”. E.Əmrullayev deyib ki, hələ də məktəblərdə 6 saata qədər dərs deyən ibtidai sinif müəllimləri var: ”İbtidai sinif müəllimlərinin təxminən 10600-ü 2010-cu ildən sonra işə götürülüb. İndi hansı məktəbdə nə qədər müəllimin çalışdığına elektron sistem vasitəsilə nəzarət etmək mümkündür”.

### “İmtahandan keçən müəllimlər ən azı beş il ərzində sertifikasiyaya cəlb olunmayacaqlar”

Emin Əmrullayev bildirib ki, müəllimlərin işə qəbul imtahanından keçən müəllimlər təkrar sertifikasiyaya cəlb olmayacaq: ”Bu mövzuda həmkarlarımdan istərdim ki, bir qədər səbrli olsunlar. Bizim ilkin planımız odur ki, MİQ imtahanından keçən müəllimlər ən azı beş il ərzində sertifikasiya imtahanına cəlb olunmasınlar. Çünki iki dəfə bir insanı eyni qurum tərəfindən imtahana cəlb etmək düzgün deyildi. Hazırda əməkhaqqında müəyyən artımlar tətbiq edildiyinə görə, bunun sertifikasiya ilə uyğunlaşdırılması məsələsi gündəmdədir. Hərçənd ki, MİQ imtahanının məntiqi ”kimi işə götürək” sualına cavab tapmaqdır. Sertifikasiyanın məntiqi fərqlidir”.

Təhsil naziri bəyan edib ki, xaricdə təhsillə bağlı bu il mühəndislik, elm, texnologiya sahəsində olan tələbələrin xaricə göndərilməsi təmin edilir: ”İlk il olduğuna görə, magistr səviyyəsi üzrə xaricdə təhsil proqramının meyarlarına uyğun gələn müraciətlərin sayı az olub. 80 bakalavr, 190 nəfər isə magistr üzrə xaricdə təhsil proqramına seçilib. Boş qalan yerlərə təkrar elan verilib. Düşünürəm ki, bu həftə və ya növbəti həftə əlavə müraciətlərə baxılacaq. Bu il ümumilikdə 300-dən artıq tələbənin xaricdə təhsil proqramına seçiləcəyini proqnozlaşdırırıq”.

Təhsil naziri məktəblərdə koronavirusla bağlı məhdudiyyət məsələsinə aydınlıq gətirib. Bildirib ki, hələlik COVİD-lə bağlı heç bir problem yoxdur: ”Ən azı indiki mərhələdə Operativ Qərargahın verdiyi tövsiyələrlə işimizi davam etdiririk. Qeyri-adi bir şey baş verməsə, tədris ilinə sentyabrın 15-də başlamağı planlaşdırırıq”.




### ”Məktəbli forması qiymətlərinin şişirdilməsi halları varsa, bunu düzgün hesab etmirik”

Nazir qeyd edib ki, uşaqlar məktəbə formada gəlməlidir və bu, şagirdlər arasında bərabərliyi formalaşdırır: ”Forma ilə gəlməlidirsə, bunun da müəyyən standartı olmalıdır. Valideyn də forma alırsa, bunun qiyməti, maya dəyərini bazar müəyyənləşdirir. Bu, elm və təhsil mövzusu deyil. Lakin qiymətlərin şişirdilməsi halları varsa, biz də bunu düzgün hesab etmirik. Digər tərəfdən biz heç kəsi forma geyinməyə məcbur etmirik”.

### ”Erkən nikahlarla bağlı məsələdə məktəb direktorunun müdaxilə imkanları məhduddur”

E.Əmrullayev vurğulayıb ki, erkən nikahlarla bağlı məsələdə məktəb direktorunun müdaxilə imkanları məhduddur: ”Çünki bir çox hallarda erkən nikahlar IX sinifdən sonra baş verir. IX sinifdən sonra isə təhsil icbari deyil. Yəni bəzi uşaqlar artıq ümumiyyətlə məktəbə gəlmirlər ki, direktor məsələni bilsin. Amma təbii ki, məktəb daxilində bununla bağlı maarifləndirmə işi aparılır və aparılmalıdır. Bu, daha çox ailə, cəmiyyət, mədəniyyət məsələsidir. Ona görə də məktəb direktorunun bu məsələdə günahı yoxdursa, onu necə cəzalandırmaq olar?”.

### ”Elə müəllimlər var ki, şagird qarşısına çıxarılması günahdır”

Nazir deyib ki, elə müəllimlər var ki, ibtidai sözünü ”iptidai, ibtidayi” yazır. Həmin müəllimin şagird qarşısına çıxarılması günahdır: ”Digər tərəfdən sertifikasiyanın keçirilməsindən sonra əlavələr də tətbiq olunacaq ki, bu da müəllimlərin məişət şəraitinin yaxşılaşdırılmasına xidmət edəcək”.

### “Məktəb psixoloqlarının fəaliyyəti ilə şagird intiharları arasında əlaqə görünmür”

Nazir bəyan edib ki, məktəb psixoloqlarının fəaliyyəti ilə şagird intiharları arasında əlaqə görünmür: ”Məktəb psixoloqlarında intiharın səbəbini axtarmaq və ona yönəlmək doğru deyil. Bunun səbəbləri tam başqadır. Əvvəllər şagird sayından asılı olmayaraq, hər məktəbdə bir psixoloq fəaliyyət göstərirdi. Biz hazırda məktəblərdə qısnama, bullinq və s. halları ilə bağlı psixoloji xidmətin mahiyyətinin dəyişməsi haqda düşünürük. Bununla bağlı işlərə başlamışıq. Bundan sonra əməkhaqqı məsələsinə də yenidən baxıla bilər. Burada əsas məqam məktəblərdə psixoloji xidmətin keyfiyyətini artırmaqdır”.

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması;**



# İdeya boşluğu var

## Siyasi partiyalarla bağlı mənzərəni dəyişmək lazımdır

**Rusiyada çar rejiminin yıxılmasından sonra xalqımız Azərbaycan Xalq Cümhuriyyətini qurmaqla türk-islam dünyasında ilkə imza atdı. Milli dövlətin yaradılması Azərbaycan xalqına öz taleyinə sahiblik imkanı verərək, inkişaf yolunda son dərəcə mühüm mərhələ oldu.**

Parlamentdə qəbul edilən qanunlar və hökumətin qərarları insan hüquq və azadlıqlarının qorunması baxımından dövrün ən mütərəqqi qanunvericilik aktları sırasında yer almaqdadır. AXC-də qadınlara seçki hüququnun verilməsi isə nəinki müsəlman Şərqində, hətta Avropanın bir çox sivil dövlətlərində nümunəvi addım sayılırdı. Cümhuriyyət dönəmində partiyalaşma prosesinin vüsət alması, siyasi təşkilatların sayının artması da əhalinin siyasi fəallığı ilə izah olunurdu. Təəssüf ki, 1920-ci il aprelin 27-də baş verən bolşevik işğalı bu inkişafın qarşısını aldı. Azərbaycanda sovet hakimiyyətinin mövcud olduğu təqribən 70 il ərzində totalitar sistemlərə xas idarəetmə tətbiq olundu. 1991-ci ilin oktyabrında Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi ilə xalqımız yenidən öz taleyinin sahibi oldu. Qısa zamanda yeni siyasi partiyalar, mərkəzçi, sağçı, milli ideyalar gündəmə gəldi. Lakin siyasi partiyaların sayı durmadan artsa da, çoxpartiyalılıq formalaşsa da, cəmiyyətin siyasi fəallığı kifayət qədər artmadı. Azərbaycanda fəaliyyət göstərən siyasi partiyaların 58-i rəsmi dövlət qeydiyyatındadır. Bəzi siyasi partiyalar ictimai həyatda fəal şəkildə iştirak etsə də, əksəriyyətinin fəaliyyəti yalnız kağız üzərindədir. Ekspertlərin fikrincə, ölkəmizdə partiyaların siyasi iş aparması üçün ciddi maddi-texniki bazası yoxdur. Siyasi partiyaların iş aparması üçün hüquqi baza da yetərsizdir. Hesab edilir ki, əgər proporsional seçki sistemi olsaydı, partiyaların rolu da, vətəndaşların partiyalara marağı artmış olardı. Bunların heç biri olmadığı üçün əhalinin siyasi partiyalaşma meyli çox aşağıdır. Partiyalar ölkənin siyasi sistemində ciddi rol oynamırsa, vətəndaşların da partiyalara qoşulmağı mənasız görsənir.

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev ”Şərq”ə açıqlamasında deyib ki, bütün cəmiyyətlərdə siyasi partiyalar cəmiyyətin əsas barometri hesab olunur. Professorun sözlərinə görə, partiyalar cəmiyyətin hakimiyyətə və dövlətə olan münasibətlərinin siyasi inikasıdır:** ”Partiyalar adətən iki qrupa bölünürlər - iqtidar və müxalifət partiyaları. Amma Azərbaycanda qeyri-adi vəziyyət yaranıb. Rəsmi qeydiyyatdan 60-a yaxın partiya keçsə də, əksəriyyəti bir-iki adamdan ibarətdir. 60 siyasi partiya onminlərlə mənsublarının olduqlarını iddia edirlər. Ancaq maraqlıdır ki, Azərbaycanda onların iddia etdiyi qədər siyasi fəal yoxdur. Statistikaya görə, əhalinin 10 faizdən çoxu bu və ya digər partiyaların üzvüdür. Ölkədə üzdə olan 5-6 siyasi partiya var. Onlar da sədr və müavinlərdən ibarətdir. Milli Məclisdə təmsil olunan siyasi partiyalarda da vəziyyət eynidir. Əlbəttə, bu mənzərəni dəyişmək lazımdır. Cəmiyyətdə vətəndaşların sosial-siyasi fəallığının, həmrəyliyinin artırılması üçün ciddi addımlar atılmalıdır. Bunun üçün ilk növbədə siyasi partiyaların tutarlı ideyaları olmalıdır. Hər partiyanın nizamnaməsində konkret olaraq hansı ideyaya xidmət göstərməsi qeyd olunmalıdır. Sovet imperiyasının sonlarına doğru partiya yaratmaq niyyətində olanlar öz ideyalarını açıq şəkildə bəyan edirdilər. Məsələn, milli istiqlalçılıq, vətəndaş həmrəyliyi, müsavatçılıq və s. siyasi ideyalar gündəmə gətirilir və cəmiyyətdə aktiv təbliğ olunurdu. İnsanların siyasiləşməsi, onlarda siyasi təfəkkür formalaşması üçün cəhdlər göstərilirdi. Azərbaycan 30 ildən artıqdır müstəqildir və bu müddət ərzində ideyasız partiyaların sayı daha da çoxalıb. Mənim düşüncəmə görə, kiçik partiyalar birləşməlidir və ölkədə 3-4 siyasi partiya olmalıdır. Xatırlayırsızsa, bir

**“Cəmiyyətdə vətəndaşların sosial-siyasi fəallığının, həmrəyliyinin artırılması üçün ciddi addımlar atılmalıdır”**

neçə iqtidaryönlü partiyalar hakim Yeni Azərbaycan Partiyasına birləşmək qərarı aldılar. Müxalifətdə olan sağçılar, solçular iki-üç partiyada cəmləşə bilərlər. Kiçik cəmiyyətlərdə bu qədər fikir müxtəlifliyinə yer yoxdur. Əgər bir millətin 60 siyasi partiyası varsa, deməli, xalq arasında 60 fərqli ideya var. Elə bunun özü bu qədər siyasi ideyanın olmadığına dəlalət edir. Mərkəzçi, sağçı, solçu, bir də sosial və ekoloji məsələlərlə bağlı ayrıca partiyaların fəaliyyət göstərməsi daha məqsədəuyğun olar”.

**C.Nuriyevə görə, əksər ölkələrdə keçid dövründə partiyaların sayı çoxalıb, lakin getdikcə sayları azalıb:** ”Azərbaycanda isə ”yağışdan sonra çıxan göbələk” partiyaların sayı artıb. Yerindən duran özünə bir partiya yaradır və özünü ”politoloq”, ”siyasi şərhçi” kimi tanıtmağa çalışır. Əksəriyyətinin biliyi, danışığı nə müasir səviyyəyə uyğundur, nə də cəmiyyət üçün faydalıdır. Əlbəttə, müxtəlif fikirlərin olması, plüralizmin inkişafı lazımdır. Ancaq insanları mənasız və əsassız çağırışlarla aldatmaq yolverilməzdir. Çoxpartiyalığı da cəmiyyətə ”demokratiya” kimi sırımaq lazım deyil”.

*Professorun fikrincə, destruktiv və konstruktiv müxalifəti bir-birindən ayırmaq lazımdır:* ”Əgər hökumətin yanlışları obyektiv tənqid olunursa, konstruktiv müxalifət formalaşar. Hamı qəbul edir ki, cəmiyyətdə siyasi rəqabət vacib amildir. Siyasi rəqabət mühiti formalaşmalıdır ki, insanların siyasi fəallığı artsın. Ağıllı fikir söyləyənlərə, faydalı təklif irəli sürənlərə qarşı ”səlib yürüşü” həyata keçirilməsini də doğru saymıram. Hamını eyni cür düşünməyə məcbur etmək olmaz. Məhz belə davranış səbəbindən siyasi proseslər solğun, yekcins və cəmiyyət üçün maraqsız hala düşüb”.

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# "Laçın şəhəri və dəhliz artıq Azərbaycanın nəzarəti altındadır"

## Tofiq Zülfüqarov: “Bir neçə günə məsələnin tamamilə xeyrimizə həll olunacağı gözlənilir”

**Məğlub Ermənistan üçtərəfli öhdəlikləri yerinə yetirməkdən yayınmağa çalışsa da, qalib Azərbaycanın hücum diplomatiyası və ”Qisas” əməliyyatından sonra Laçından çıxmaq məcburiyyətində qaldığını anlayıb. Laçın şəhərinin mərkəzi, Zabux və Sus kəndlərində yaşayan ermənilərin hamısı bölgəni tərk etməyə məcbur qalıblar. Çünki həmin ermənilərin əksəriyyəti işğaldan sonra Yaxın Şərq ölkələrindən Laçına gətirilib və orada qanunsuz məskunlaşmalarına imkan yaradılıb.**

Lakin Azərbaycan yeni yolu istifadəyə verdiyi üçün ermənilər Laçın şəhəri, Zabux və Sus kəndlərini tərk etməlidirlər. Yeni yola tətbiq edilən prinsiplər də Zəngəzur dəhlizi ilə eyni olmalıdır. Onu da qeyd edək ki, avqustda nəzarətə götürülən Qırxqız və Sarıbaba yüksəkliklərindən yeni çəkilən Laçın yoluna tam nəzarət mümkündür. Son günlərin əsas müzakirə mövzusu ilə bağlı ”Şərq”in müsahibi Azərbaycanın sabiq xarici işlər naziri, politoloq Tofiq Zülfüqarovdur. Keçmiş XİN başçısı qəzetimizə açıqlamasında Laçın şəhərinin nəzarətimizə keçməsi, alternativ yolun əhəmiyyəti, ”Qisas” əməliyyatından sonrakı hərbi və siyasi vəziyyətlə bağlı məsələlərə aydınlıq gətirib...

**- Tofiq müəllim, avqustun 25-nə, digər xəbərlərə görə isə sentyabrın 1-nə kimi Laçının mərkəzinin və ətraf kəndlərin ermənilərdən tamamilə boşaldılacağı, nəzarətimizə keçəcəyi deyilir. Sizcə, prosesi problemsiz yekunlaşdırmaq mümkün olacaqmı?**

- Azərbaycan tərəfi ardıcıl şəkildə qarşısına qoyduğu məqsədlərə nail olur. Əlbəttə, hamı istəyir ki, daha tez müddətdə proseslər yekunlaşsın və problem həllini tapsın. Amma reallıqda bu, mümkün deyil. İndiki mərhələdə görürük ki, Laçın şəhərinin mərkəzi və dəhliz artıq Azərbaycanın nəzarəti altındadır. Bir neçə günə məsələnin tamamilə xeyrimizə həll olunacağı gözlənilir. Laçının müxtəlif yerlərində yaşayan ermənilərin hamısı gəlmələrdir, yerli əhali deyillər. Rayon işğal olunandan sonra başqa ölkələrdən gətirilən ermənilər azərbaycanlılara məxsus evləri, mülkləri zəbt etməklə onların hesabına özlərinə həyat qurublar. Təbii ki, kənardan gələn ermənilərin Azərbaycan ərazisində qalması qanunlarımıza ziddir. İstənilən ölkənin təcrübəsinə baxsaq, bu şəkildə qanunsuz yerləşmənin cinayət kimi qəbul olunduğunu görərik. Bu, işğal olunmuş ərazilərdə demoqrafik vəziyyətin dəyişməsi deməkdir. Beynəlxalq qanunlara görə, bu, cinayət sayılır. Azərbaycan bu məsələni öz xeyrinə həll etməyə nail olub. Laçın yolunun erməni tərəfində də tikintisi davam edir. Bəllidir ki, kommunikasiya yeni və alternativ yolla həyata keçiriləcək.



**- Alternativ yolun işə düşməsi nə anlama gəlir? Rus sülhməramlılarının nəzarəti altında olacaq yeni yol bizim üçün hansı baxımdan faydalıdır?**

- İlk növbədə yeni yola tətbiq olunacaq qaydaların dəyişməsi təmin olunmalıdır. Rusiya sülhməramlıları yeni yolun ancaq təhlükəsizliyini təmin edəcəklər. Bir növ post-patrul xidmətini həyata keçirəcəklər. Onların əsas missiyası bu olacaq. Amma sərhəddə gömrük-keçid məntəqələrinə nəzarəti birmənalı olaraq Azərbaycanın müvafiq qurumları həyata keçirməlidir. Əgər bunu təmin etmək mümkün olarsa, Qarabağla bağlı xoşagəlməz hadisələrin də şahidi olmarıq. Müəyyən şəxslərin Azərbaycan ərazisinə qeyri-qanuni daxil olmasına da imkan verilməyəcək. Bunun da yolun təhlükəsizliyinin təmin olunması ilə heç bir əlaqəsi yoxdur. Nəzərə alaq ki, Qarabağda yaşayan ermənilərin inteqrasiya prosesi başa çatmayıb. Yəni onların tam şəkildə Azərbaycan qanunlarına tabe edilməsi prosesi hələ davam edir. Qarabağda yaşayan ermənilərin Ermənistana müvəqqəti gediş-gəlişi yeni yolla təmin olunacaq. Müvəqqəti olaraq hansısa güzəştlər də tətbiq edilə bilər. Amma Qarabağda yaşayan ermənilərin hamısı qeyd-şərtsiz Azərbaycan qanunlarına tabe olmalıdırlar. Təzə yolun avantajı o olar ki, hansısa yaşayış məntəqəsindən keçməsin və orada yeni qaydalar tətbiq olunsun. Əsas məsələ budur və mütləq nail olmalıyıq.

***"Rəsmi Bakının, həmçinin, regional dövlətlərin İrəvana təzyiqi güclənməkdədir. Digər ölkələr də bəyan edirlər ki, Zəngəzur dəhlizi qısa zamanda işlək vəziyyətə gətirilməlidir"***

**- ”Qisas” əməliyyatı ilə bağlı da müzakirələr davam etməkdədir. Əməliyyatın ikinci mərhələsinin başlayacağını iddia edənlər də var. Sizcə, separatçıların bölgəni tərk etməsi üçün belə əməliyyatlar nə qədər əhəmiyyətlidir?**

- Dəfələrlə bəyan olunub, hətta dövlət başçısı da qeyd edib ki, Qarabağda reinteqrasiya prosesi başlanmalıdır. İndiki məqamda əsas məsələlərdən biri vaxtı ilə qeyri-qanuni şəkildə təşkil olunmuş qurumların, silahlı dəstələrin tam şəkildə ya bölgədən çıxarılması, ya da tərksilah edilməsi ilə bağlıdır. Bu, bölgənin təhlükəsizliyi üçün çox önəmli məqamdır. Qarabağda təhlükəsizlik Azərbaycanın müvafiq qurumları tərəfindən, o cümlədən müvəqqəti olaraq sülhməramlılarla birgə təmin olunmalıdır. Təhlükəsizlik mövzusunda boşluq ola bilməz. Digər məsələlər isə reinteqrasiya ilə bağlıdır. Məsələn, iqtisadiyyat sahəsi. Məlumdur ki, işğal dövründə Qarabağ bölgəsi öz iqtisadi əlaqələrini Ermənistanla qurub. Həmin əlaqələrin ardıcıl şəkildə Azərbaycana keçirilməsi vacib məsələ olmaqla yanaşı, həm də çox vaxt aparan prosesdir. Eyni zamanda seçki sistemi və digər məsələlər də tədricən həllini tapmalıdır. Yəni bölgənin reinteqrasiyası kifayət qədər uzun prosesdir. Hazırda təhlükəsizlik sisteminin yenilənməsi və müvəqqəti təzə sistemin yaradılması mərhələsindəyik. Hesab edirəm ki, bu çox vacib mərhələdir. Azərbaycan istəklərinə nail olmaq üçün israrlı olmalıdır.

**- Siyasi müstəvidə Azərbaycan-Ermənistan arasında gedən müzakirələri necə dəyərləndirirsiniz? Prosesin ləng irəliləməsinin səbəbləri nədir?**

- İki məqamı bir-birindən ayırmaq lazımdır. Əvvəlcə toxunduğum reinteqrasiya prosesi Azərbaycanın daxili məsələsidir və bizim torpaqlarımızda yaşayan ermənilərlə bağlıdır. Lakin Azərbaycanla Ermənistan arasında postkonflikt dövrünə aid problemlər qalmaqdadır. Ermənistan tərəfi sərhədlərin delimitasiya və demarkasiyasını, dəhlizlər məsələsini müxtəlif bəhanələrlə yubatmağa çalışırlar. Amma görürük ki, rəsmi Bakının, həmçinin, regional dövlətlərin İrəvana təzyiqi güclənməkdədir. Digər ölkələr də bəyan edirlər ki, Zəngəzur dəhlizi qısa zamanda işlək vəziyyətə gətirilməlidir. Siyasi müstəvidə proseslərin ləng getməsinin, müzakirələrin müsbət nəticə verməməsinin səbəbləri var. Səbəblərdən biri odur ki, hələlik Azərbaycan-Ermənistan arasında normal münasibətlər yoxdur. Bunun üçün qarşılıqlı olaraq ölkələrin ərazi bütövlüyü və suverenliyi tanınmalıdır. Ölkələr bir-birinin daxili işinə qarışmamalıdır. Ancaq biz görürük ki, Ermənistan bu prinsiplərə sözdə əməl etdiyini desə də, praktiki baxımdan başqa cür addım atır. İrəvan hökuməti Qarabağdakı separatçılarla ”təhlükəsizliyin təminatı” adı altında əlaqəni kəsmir və Azərbaycanın daxilindəki proseslərə müdaxilə edir. Faktiki olaraq köhnə siyasətlərini davam etdirməyə cəhd göstərirlər. Təbii ki, belə davranış Azərbaycan tərəfindən qəbul oluna bilməz. Heç bir ölkə razı olmaz ki, digər dövlət onun qanuni ərazilərində ağalıq etsin. Proseslər ləng getdiyi üçün Azərbaycan tərəfi həm siyasi təzyiq göstərir, həm də lazım olan anda hərbi təzyiq metodlarını da işə salır. ”Qisas” əməliyyatı ermənilərə böyük mesaj idi ki, xəbərdarlıqları ciddi qəbul etsinlər.

**İsmayıl Qocayev**

**Elan**

Bakı şəhəri, Yasamal rayon sakini Namazova Ülviyyə Mahir qızının adına 13.05. 2014-cü il tarixdə verilmiş sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2320

# Narkotika satanlar artıq küçələrdə meydan sulayır

## Çıxış yolu var, bu bəlaya qarşı mübarizə aparanların əməkhaqqı 3 dəfə artırılmalıdır



**Bakının 2 küçəsində narkotik satan 15 nəfər saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, onlar paytaxtın Cəlil Məmmədquluzadə ("Papanin"), Şimal şitilliyi ("Xutor"), Namiq Məlikov küçələrində narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilindiklərinə görə saxlanılıb.**

Nərimanov RPİ əməkdaşları tərəfindən 12, Nəsimi RPİ əməkdaşları tərəfindən 3 nəfər barəsində qanunvericiliyə uyğun tədbirlər görülməklə istintaqa təhvil verilib. Araşdırmalar davam etdirilir.

Narkotik istifadəçilərinin və satıcılarının küçələrdə çoxalması cəmiyyət üçün qorxulu hal alıb. Onların sosial həyatda bu qədər əlçatan olması vətəndaşlar, xüsusilə, azyaşlılar üçün təhlükəli vəziyyət yaradır. Həmçinin narkotik istifadəçilərinin sosial şəbəkələrə ayaq açması, öz məşğuliyyətlərini açıq-aydın paylaşması vəziyyəti daha da kritikləşdirir.

**Mövcud problemi "Şərq"ə şərh edən narkomaniya üzrə ekspert Emil Maqalov bildirib ki, narkotik satanların təqribən 70 faizi demək olar ki, narkomanların özləridir. Onun sözlərinə görə, insanlarda bir neçə dəfə istifadədən sonra narkotikə fiziki və psixoloji asılılıq başlayır:** "Nəticədə şiddətli ağrılar yaranır və bu zaman onlar nə etdiklərini bilmir. Belə vəziyyətdə onlar özlərinə "dərman" axtarır. Narkotik satışı öncələr də olub. İndi polisin gücləndirilmiş iş rejimi sayəsində azalsa da, hələ də satış mövcuddur. Problemin çıxış yolu üçün həll olunmalı beş əsas məsələ var. İlk olaraq, bu işlə məşğul olan hökumət və ya qeyri-hökumət işçilərinin əməkhaqqı minimum 3 dəfə artırılmalıdır. İkinci olaraq, məktəblərdə bu mövzuda keçirilən tədbirlərin formatı dəyişdirilməlidir. Keçirilən tədbirlərlə yanaşı, psixoloqlar bu haqda məlumatlı olmalıdır. Onların da maaşı artırılmalıdır. Digər məsələ isə keyfiyyətli müalicə mərkəzləri ilə bağlıdır. Belə mərkəzlərin sayı çox azdır. Ölkədə 6 müalicə mərkəzi var. Dördüncü məsələ narkoloq çatışmazlığıdır. Onların da sayı artırılmalıdır. Sonuncu məsələ isə reabilitasiya mərkəzləri ilə bağlıdır. Bu əsas beş problemi həll etmək üçün yetərli maliyyəmiz yoxdur".

*Mütəxəssis qeyd edib ki, hazırda inkişaf etmiş ölkələrdə "Zərərin azaldılması" layihəsi mövcuddur:*

"Bu layihənin tərkibində müayinə, müalicə, psixoloq, narkoloq və vəkil xidmətləri pulsuzdur. Bundan əlavə, layihəyə pulsuz steril materiallar, dərmanlar, narkotiki əvəzedici terapiya, tibbi metadon proqramı daxildir. Bu layihə 17 ildən çoxdur ki, Azərbaycanda mövcuddur. Lakin son 5 il ərzində zəifləyib. Çünki öncələr 30 QHT bu layihə ilə işləyirdi. İndi isə təşkilatların sayı 9 QHT və 30 işçiyə qədər azaldılıb. Bu rəqəm Azərbaycan üçün çox azdır. Təklif edirəm ki, hökumətimiz Səhiyyə Nazirliyi və aidiyyəti dövlət qurumlarının Qlobal Fondla keçirdiyi bu layihəyə təkan versin və QHT-lərin və buradakı işçilərin sayı artırılsın. Nəticədə biz də layihə ilə müalicə, müayinə və antitəbliğat məsələlərinə yardım göstərək".

**Çimnaz Şahlar**



**Elm və təhsil naziri Emin Əmrullayev bəzi məktəblərin birinci sinfinə şagird qəbulu imtahanlarının ləğv edilməsi fikirlərinə münasibət bildirib.**

Nazir brifinqdə jurnalistlərin suallarını cavablandırarkən qeyd edib ki, birinci sinfə şagird götürəndə onu imtahan etmək doğru deyil: "Amma deyə bilərsiniz ki, bəs, nə üçün bəzi məktəblərdə imtahan tətbiq olunur? Bunun üçün də müəyyən mexanizm olmalıdır. Hazırda sadəcə, 30-35 məktəbdə birinci sinfə imtahanla qəbul var. Bütün məktəblərdə bu mexanizm tətbiq olunmur. Təkrar qeyd edirəm ki, xüsusi məktəblərə şagird qəbulu imtahanla aparılır".

# Ekspert nazirin məntiqi ilə razılaşır

## Birinci sinifə qəbulu imtahanla aparmaq doğru deyil

**Birinci siniflər üçün qəbul imtahanlarının keçirilməsinə münasibət bildirən təhsil eksperti Elşən Ramizoğlu "Şərq"ə açıqlamasında qeyd edib ki, 6 yaşlı uşaqları imtahan etmək doğru yanaşma deyil:** "Şagird məktəbə hələ ilkin addımını atmayıb. O, nə öyrəndi ki, nə də imtahan versin? Ümumiyyətlə, birinci sinfə qəbul olduqdan sonra birbaşa imtahan üsulu ilə qiymətləndirmə aparmaq da doğru deyil. Görünən odur ki, bəzi məktəblərə tələbat çoxdur. Valideynlər də uşaqlarının həmin məktəblərdə təhsil almasını istəyirlər. Lakin məktəblərdə kifayət qədər yer olmadığından yalnız imtahan üsulu ilə sıxlığın qarşısı alınır. Həmçinin şagirdlər belə məktəblərə qəbul olmaq üçün öncədən hazırlaşır. Bir sözlə, bu üsulla yalnız istedadlı şagirdlər məktəbə qəbul olunur.

**Şagirdlər ilk olaraq yaşadıqları əraziyə uyğun məktəblərə qəbul olunmalıdır**

Ümumiyyətlə, qanunda qeyd olunub ki, xüsusi proqram əsasında təhsil verən təhsil müəssisələri istisna olmaqla, yerdə qalan müəssisələrdə şagirdlər yaşadıqları əraziyə uyğun olaraq ilk növbədə qəbul olunmalıdır. Bizdə bu tənzimlənmə qaydaları pozulduğu üçün belə vəziyyət yaranıb".

**Çimnaz Şahlar**



# "Laçında evləri yandıran ermənilərin cəzası ağır olmalıdır"

## Tural Abbaslı: "Belə ləyaqətsiz toplumla birgəyaşayış çox çətin olacaq"

**Zabuxu tərk edən ermənilər oradakı evləri yandırmaqda davam edirlər. Kənddə qanunsuz yaşayan Arman Ayrapetyan iki gün əvvəl evini tərk edərkən necə yandırmasının videosunu sosial şəbəkədə paylaşıb. Onun sözlərinə görə, məqsəd evini "düşmənlərə" qalmasına imkan verməməkdir.**

Ermənilər "düşmən" dedikləri isə həmin torpaqların əsl sahibləridir və öz dədə-baba yurdlarına qayıdırlar. Ermənilər isə barbar xislətlərini ortaya qoymaqda davam edirlər. Bu addımları ilə dinc, normal qonşuluq münasibətlərinə hələ də hazır olmadıqlarını göstərirlər. Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu da "Haber Global"a müsahibəsində ermənilərin Laçın şəhəri, Sus və Zabux kəndindən çıxarkən dağıntılar törətməsinə reaksiya verib. Nazir baş verənləri insanlıq üçün utanc adlandırıb: "Ermənilər buraları yandırırlar və eynilə Birinci Qarabağ müharibəsində etdikləri kimi, insanlığın utanacağı işlər görürlər. Ermənistan dərs götürməlidir. Bizim Ermənistanla normallaşmanın əldə olunması istiqamətində səmimiyyətimizi hamı görür. Ermənistan tərəfi bilsin və unutmasın ki, bizim Azərbaycandan fərqli istədiyimiz bir şey yoxdur. Biz barış istəyirik. Azərbaycanın öz torpaqlarında tam nəzarəti bərpa etməsi vacibdir. Azərbaycan bu əraziləri bərpa etmək, inkişaf etdirmək istəyir, bu ərazilərdə yaşayan ermənilərə "buyurun, gəlin, bütün haqlarınızı istifadə edəcəksiniz" deyir. Azərbaycan hərtərəfli sülh sazişi təklif edir. Bundan artıq Azərbaycan nə etsin?".

**Laçındakı vandallıqla bağlı "Şərq"ə danışan AĞ Partiya sədri Tural Abbaslı deyib ki, ermənilərdə ikiüzlülük, yaltaqlıqla bərabər həm də yırtıcılıq xisləti var. Partiya rəhbəri xatırladıb ki, ermənilər Kəlbəcəri tərk edərkən də eyni cür hərəkətlər ediblər:** "Təəssüflər olsun ki, bu məsələlərə zamanında adekvat reaksiya vermədik, verə bilmədik. Əgər dünya ictimaiyyəti erməni vəhşiliyindən xəbər tutsaydı, Ermənistan qınansaydı, bəlkə də növbəti dəfə buna cəsarət etməzdilər. Reaksiya olmadığına görə ermənilər növbəti dəfə öz çirkin əməllərini sərgiləməkdən çəkinmədilər. Müasir dövrdə bütün məsələlər təbliğatdan asılıdır. Erməni vəhşiliyini bütün çılpaqlığı ilə dünyaya təqdim etməliyik ki, beynəlxalq ictimaiyyətdə rəy formalaşsın. Hələ də bəzi ölkələrdə Azərbaycan tərəfi "müharibəyə meyilli", Ermənistan isə "sülhpərvər" kimi tanınırsa, deməli, Xarici İşlər Nazirliyimiz, diasporamız yaxşı işləmir. Biz öz həqiqətlərimizi çatdırmaqda çətinlik yaşayırıq, amma ermənilər uydurduqları məsələləri "həqiqət" kimi dünyaya sırıyırlar. Hətta ermənilər Xocalı soyqırımını əks etdirən fotoları "ermənilərin başına gətirilmiş faciə" kimi dünyaya təqdim edirdilər. Yəni çox ləyaqətsiz bir topluluqla üz-üzəyik. Düşünürəm ki, belə bir topluluqla birgəyaşayış da çox çətin olacaq. Ümumiyyətlə, bunun mümkünlüyünə inanmıram. Bəlkə ermənilər özləri də vandalizm hərəkətləri ilə dünyaya mesaj verirlər ki, onların azərbaycanlılarla birgəyaşayışı qeyri-mümkündür".

***"Bəlkə ermənilər özləri də vandalizm hərəkətləri ilə dünyaya mesaj verirlər ki, onların azərbaycanlılarla birgəyaşayışı qeyri-mümkündür"***

**T.Abbaslı məsələnin digər tərəfinə də toxunub. Qeyd edib ki, biz öz torpaqlarımızda baş verənlərə görə dünyadan nəsə gözləməməliyik:** "Cinayətlər Azərbaycan ərazisində törədilir, bizim evlərimiz, meşələrimiz yandırılır, təbii sərvətlərimiz talanır. Bakı şəhərində hansısa evi, yaşıllığı yandırmaq istəyən şəxslə necə rəftar olunursa, Laçındakı erməniyə ondan iki qat artıq reaksiya olmalıdır və cəzası verilməlidir. Ermənilərin özbaşınalığına göz yummaq daha ciddi fəsadlara yol açar".

**İsmayıl Qocayev**

# Yaxın günlərdə maska tələbi məcburi olacaq

## Məhdudiyyətlərin tətbiq olunacağı, karantin qaydalarının sərtləşdiriləcəyi isə gözlənilən deyil

**Hazırda koronavirusa yoluxanların sayının artması bütün dünya ölkələri üçün aktual məsələyə çevrilib. Ölkəmizdə də bu virusa yoluxanların sayında yenidən canlanma müşahidə olunur. Ötən gün Azərbaycanda koronavirusdan 8 nəfər həyatını itirib. Aktiv xəstə sayı isə 4 minə yaxınlaşıb. Belə olan halda ölkədə qapanmaların olub-olmayacağı müzakirə mövzusudur.**




Şimal qonşumuz artıq buna uyğun addımlar atmağa başlayıb. Belə ki, Rusiyada iri mağazalar şəbəkəsi olan "Maqnit" əməkdaşları üçün maska rejimini tətbiq edib. Qeyd edək ki, son həftələrdə Rusiyada koronavirusa yoluxma sayında kəskin artım müşahidə olunur. Ötən həftə ərzində yoluxma sayı əvvəlki həftə ilə müqayisədə 38 faiz artıb.

**Yoluxmalarda artan tendensiya barədə "Şərq"ə danışan infeksionist Mərdan Əliyev bildirib ki, ölkədə artıq fərdi şəkildə maskaların istifadə olunması tövsiyə olunur:** "Bu barədə risk qrupuna daxil olanlara xüsusi məsləhət verilir. Lakin görünür, fərdi şəkildə buna əməl edən şəxslərin sayı azdır. Çünki böyük ticarət mərkəzlərində, xəstəxanalarda, ictimai nəqliyyatda maskadan istifadə edənlər bir o qədər də gözə çarpmır. Belə vəziyyətdə maskalardan istifadənin vacibliyini vurğulayırıq. Özünü narahat hiss edənlər, yüngül zökəm əlamətləri yaşayanlar və xəstələr maska taxmalıdır. Digər sağlam şəxslər isə xəstəliyə yoluxmamaq üçün qapalı və əhalinin sıx olduğu yerlərdə buna əməl etməlidir".

***"Yoluxanların sayının artması isə mümkündür. Çünki payız fəslinə doğru gedirik və bu mövsümdə koronavirusun geniş yayılması baş verə biləcək haldır"***

**İnfeksionist hesab edir ki, maska tələbi olsa da, qapanmalara gedilməyəcək:** "Yaxın müddətdə maska tövsiyəsinin məcburiyyətə çevriləcəyi gözlənilir. Yəni əgər yoluxmalar artmağa davam edərsə, maska taxmaq tələbi gerçəkləşəcək. Yoluxanların sayının artması isə mümkündür. Çünki payız fəslinə doğru gedirik və bu mövsümdə koronavirusun geniş yayılması baş verə biləcək haldır.

Məhdudiyyətlərin tətbiq olunacağı, karantin qaydalarının sərtləşdiriləcəyi isə gözlənilən deyil. Çünki cəmiyyətimizdə koronavirusa qarşı kollektiv immunitet formalaşıb. Eyni zamanda peyvəndləmə prosesi baş tutub. Karantin qaydalarının sərtləşdirilməsi ölkə üçün də arzuolunan deyil. Düşünürəm ki, yalnız maskaların taxılması və peyvənd sertifikatlarının tələbi gündəmə gələ bilər. Bəzi idarələrdə lokal məhdudiyyətlər qoyula bilər. Amma önceki dövrlərdəki kimi sərt karantin qaydaları gözlənilmir".

**Çimnaz Şahlar**

# Avtobuslar vaxtında mənzil başına çata bilmir

## Bakıda yayda da dəhşətli tıxaclar yaranır

**"Əgər yolda daim gecikmələr varsa, bu, həmin yolun intensivliyindən irəli gəlir. Deməli, o yolda marşrut düzgün seçilməyib və sürücülər də düzgün hərəkət etmirlər"**

**Vahid Dispetçer Xidmətinin dünən səhər pik saatlarına dair məlumat verilib. Məlumata əsasən, paytaxtın müxtəlif ərazilərində müşahidə olunan nəqliyyat sıxlıqları səbəbindən 34 müntəzəm marşrut xətti üzrə 98 avtobusun hərəkət intervalında gecikmələr var.**

Bu barədə Bakı Nəqliyyat Agentliyindən (BNA) bildirilib ki, Bakı-Sumqayıt şosesi - Bakı Beynəlxalq Avtovağzal Kompleksi - Moskva prospekti - 20 Yanvar dairəsi istiqamətində 2, 7A, 13, 14, 18, 29, 67, 83, 92, 96, 114A, 114B, 119, 135 və 199 nömrəli müntəzəm marşrut xətlərindəki avtobuslararası 8-15 dəqiqə , Zabrat şosesi-şəhər istiqamətində 40, 131, 163, 216, 217 və M8 nömrəli müntəzəm marşrut xətlərindəki avtobuslararası intervallarda 11-13 dəqiqə, Binəqədi şosesi - Azadlıq metro stansiyası istiqamətində sıxlıq yaranıb. Bu səbəbdən də həmin ərazidən keçən 71, 79, 133, 165, 179, 202 nömrəli müntəzəm marşrut xətlərindəki avtobuslararası intervallarda 12-15 dəqiqə, Mikayıl Useyinov küçəsi Azneft meydanı istiqamətində (avtobus zolağının olmasına baxmayaraq digər nəqliyyat vasitələri zolağın tələbini pozurlar) 5, 6, 53, 88, 125, 127 və 205 nömrəli müntəzəm marşrut xətlərindəki avtobuslararası intervallarda 9-11 dəqiqə gecikmə müşahidə olunur.



Xatırladaq ki, bir gün öncə də 158 marşrut tıxacda qalaraq gecikmə yaşamışdı. Bəs məktəblərin, universitetlərin bağlı olduğu dönəmdə tıxaclara səbəb nədir?

**Tıxaclarda avtobusların da günah payı olduğunu deyən Azərbaycan Texniki Universitetinin Avtomobil daşımaları və yol hərəkətinin təşkili kafedrasının dosenti Fərhad Eyyubov "Şərq"ə bildirib ki, marşrutlar öz intervallarını gözləməlidir:** "Belə hadisələr müxtəlif səbəblərdən ola bilər. Ola bilər ki, yolları bağlayıblar və yaxud da qəza baş verib. Bu zaman da tıxac yarana bilir. Gərək hadisə ilə bağlı araşdırılma aparılsın. Əgər yolda daim gecikmələr varsa, bu, həmin yolun intensivliyindən irəli gəlir. Deməli, o yolda marşrut düzgün seçilməyib və sürücülər də düzgün hərəkət etmirlər. Hər marşrut xəttinin öz intervalı var. Müntəzəmlikdən asılı olaraq avtobuslar o intervaldan düzgün istifadə etməlidir. Bəzən bu intervallar pozulur. Dayanacaqların sahəsi isə avtobusların hamısının dayanması üçün bəs etmir. Minimum interval pozulduqda da marşrutlar ard-arda qalır və tıxaclar yaranır. Doğrudur, yay aylarında maşınların sayı nisbətən azalır. Lakin intensivlik üçün yolun buraxma qabiliyyəti də nəzərə alınmalıdır. Əgər yol çox maşının buraxılmasına imkan vermirsə, yenə də tutulma olur".

**Nihat Müzəffər**

# "Qırmızı Kitab"a düşən maral növü Kiçik Qafqaza köçürüləcək

**"Qırmızı Kitab"a düşən nəcib maralın Böyük Qafqaz ərazisindən saylarının artırılaraq Kiçik Qafqaz ərazisinə köçürülməsi nəzərdə tutulur".**



"Report" xəbər verir ki, bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəisi Firuddin Əliyev "Ekspert saatı"nda deyib.

Onun sözlərinə görə, artıq bu istiqamətdə ilkin addımlar atılır: "Bu tədbirlər bezoar keçisi üçün də keçərlidir. Onların tutularaq saylarının çoxaldılması planlaşdırılır. Mərhələli şəkildə digər heyvan növlərinin də sayının artırılması planda var".